***HEYDƏR BABA***

***(poemadan)***

*Ön söz*

Bir ağı var canım Odlar Yurdunun
Rüzgarında, dalğasında, selində.
Mən bu yurdun dönə-dönə olmuşam
Şirvanında, Muğanında, Milində.

Şəhidləri güvəncidir sağların,
Sayısı yox bağrındakı dağların,
Bir özləm var bağçaların, bağların,
Yarpağında, çiçəyində, gülündə.

Bir ölkəyə yetərlidir sərvəti,
Sabah üzə çıxacaqdır qüdrəti,
İldırımla aylanmaqda qüvvəti
Halayında, ürəyində, dilində.

Yurddaşların ümidlidir gözləri,
Qulaqlarda Heydər bəyin sözləri,
Heydər baba qurtaracaq bizləri ,
O, günəşdir Azərbaycan elində.

***

Uca göylərdə bir inancla uçan
Qartala bənzəyir Azərbaycan.

Qarabağ, Naxçıvan qanadlarıdır,
Bu qanadlar onun inadlarıdır.

Ürəyində Oğuzxanın ürəyi,
Torpağa qoydurulmamış kürəyi.

İldırımlarla çağlayan qanı var,
Qocaman dağlarında vulkanı var.

Ulu qartal qanadlı bir qurddur,
Varlığıyla uluslaşan yurddur.

Göydə şimşək çaxar da sarsılmaz,
Yerdə tufan qopar da sarsılmaz.

Uçurumlardan adlayıb da uçar,
Uçar, aləmə başqa aləm açar.

Çırpınan türküsü Oğuz səsidir,
Səsi tanbur, davul, qopuz səsidir...

Haqqı Heydər Babayla alqışlar
Ona neylər yabançı bayquşlar.

***

Heydər baba əminəm ki, zəfərlər çalacaqdır,
Dağlar aşacaqdır ulu yurdun qanadıyla.
Tarixinə yurdun düşəcəkdir, qalacaqdır,
Əzmilə, inacncıyla, güvənciylə, adıyla.

Yurd sevgisidir öndər üçün ən uca sancaq,
Yurd sevgisi Heydər babaya taxt olacaqdır.

Heydər babadır xalqımızın qeyrəti ancaq,
Yurd ancaq onunla yenə xoşbəxt olacaqdır.

Sönməz alovuyla tutuşan şanlı ocaqlar,
Eşqinlə ərənlər odunu parladacaqlar.

Ruhunda ulus sevgisi, qəlbində yox ürkü,
Heydər baba Azərbaycanın ölməz Atatürkü.

Hər yerdə onun ülfəti var, qüdrəti vardır.
Hər kəsdə onun qüvvəti var, qüdrəti vardır.

Millət onu alqışlamada, millətə eşdir,
Bir canlı günəş bir ulu, ilhamlı günəşdir.

Parlar o düha daima, parlar göy üzündən,
Yurddaşlar üçün müjdə qamarlar göy üzündən.

Yüksəkdə yaşar, varlığı, aşkarlığı yüksək,
Azdır gecə-gündüz onu varlıqda düşünsək.

***

Könlümüz, ruhumuz eşqiylə onun parlamada,
Səsimiz mərhəmətiylə ucalıb gurlamada.

Atadır o, atadır, hər ulu şəfqətli Ata,
Saysız övaldlarına sayqılı, diqqətli Ata.

Bizləri kimsə onuntək duya bilməz, duymaz,
Kim onun dalğalanan eşqinə candan uymaz?

Bu vətəndə ona bənzər ulu dahi yoxdur,
Bu ulusta o ilahidən ilahi yoxdur.

O bizim varlığımızdır, o, bizim mənbəyimizdir,
Əzəli qüdrətimizdir, əbədi şənliyimizdir.

Bizi görmək diləyənlər ona baxsın ancaq,
O, bizim öndərimizdir, o, bizi qurtaracaq.

Nurunun lütfünü hiss etmək olur gündə onun,
Öldü yoxdur ona, yoxdur ölüm ömründə onun.

Bu vətəndə nə ucaltmışsa onun şöhrətidir,
Nə zəfər varsa, onun hikmətinin zinətidir.

Biz onun varlığıyız, bizdən uzaqlaşmayacaq,
Ona bir kimsə bu torpaqda yasaklaşmayacaq.

Onun ülviyyətidir daimi ülviyyətimiz,
Eşqimiz, sənətimiz, ziynətimiz, dövlətimiz.

Ağlayan türkümüzü duymaya Türk lazımdır,
Bax bu günlər ölümə dalmış olan millətimə.

Millətin rəmzi olan bir atatürk lazımdır,
Ana yurdda atasız qalmış olan millətimə.

Atamız, atamız sevgili Heydər babadır,
Uzun illər ulusun nisgili Heydər babadır.

***

Heydər babaya can verən oğlanlarımız var,
Kaplan südü içmiş dəli ceyranlarımız var,
Seyr etməyə ceyran kimi seyranlarımız var,
Hər qitədə, hər ölkədə heyranlarımız var.

Ey şanlı Vətən, şöhrətimizsən, şanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan.

Ayrılmarız, aləm bilir, öz torpağımızdan,
Qartallarımız cövlan edir ovlağımızdan,
Alçaqlara şimşək saçılır hər dağımızdan,
Ay-ulduz bax aylanıyor bayrağımızdan.

Ey şanlı Vətən, məsləkimiz, vicdanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan.

Bir türkü yayılmaqdadır eşsiz dilimizdən,
Heydər baba tutmuş Atatürktək əlimizdən,
Bir kimsə ayırmaz onu bir gün elimizdən,
Üstün tutarıq biz onu can sevgimizdən.

Ey şanl Vətən, sevgilimizsən, canımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan.

Bir ərsəyə çatdıq ucalıb ərsə çatandan,
Minlərcə şəhid torpağın altında yatandan,
Minlərcə igid bayrağı qan rəngli qatandan,
Varlıqla bizə yox uca bir nəsnə Vətəndən.

Ey şanlı Vətən, bayrağı sönməz qanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan.

Heydər baba, eşqinlə sənin hər yeri gəzdik,
Yüksəklikləri alqışladıq, alçaqları əzdik,

Səndən uzaq olduqda da, hər gün səni sezdik,
Sənsiz nicat olmazdı, zəfər bəstələməzdik.

Ey şanlı Vətən, sən əbədi ünvanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan.

Sanlar sənə qurbandır, ömürlər sənə vurğun,
Neylər uca dağlardakı qartallara quzğun?
Heydər babadır söyləyən alçaqlara qorxun,
Tarixdə qalan abidəmiz var, adı Orxun.

Ey şanlı Vətən. Canlı şərəf dastanımızsan,
Canlar sənə qurban, can Azərbaycanımızsan.

Gələcək bir gün əminəm, o gözəl gün gələcək,
Yurdumun haqlı səsi haqqa qədər yüksələcək.
O, günəş nurunu yurddaşlara göydən saçacaq,
Yaslı üzlər güləcək, paslı könüllər açacaq.

Güləcəkdir üzü bir gül kimi Heydər babanın,
Yurdumuz  alqışına uğrayacaq hər obanın.

***1993***

***Rəfiq Zəka Xəndan***

***Azərbaycan cahandır. – B. : Mütərcim, 2009. – S. 10-15.***